## GÖRKƏMLİ ADAMLARIN SÖYLƏDİKLƏRİ FİKİRLƏR

Siz xalqımızın tarixi keçmişində, elm və mədəniyyətində öz yeri olan böyük bir nəslin ənənələrini ləyaqətlə davam etdirərək Azərbaycan musiqi mədəniyyətinə gözəl töhfələr vermişsiniz.Əlli illik yaradıcılıq yolunuz həm ifaçı, həm də bəstəkar kimi xalqa sədaqətli xidmət, musiqi sənətinə möhkəm bağlılıq nümunəsi olmuşdur. Azərbaycan milli musiqi xəzinəsinin dərin köklərindən bəhrələnən çoxşaxəli yaradıcılığınız müasir musiqinin ümumi kontekstində inkişaf edərək sənət aləmində Sizə böyük hörmət qazandırmışdır.

***Heydər Əliyev,***
***Ümummilli lider***

Tofiq Bakıxanov ona görə xoşbəxt sənətkardır ki, elə bir ailədə doğulub və böyük bəstəkar, gözəl insan Qara Qarayevin sinfində dərs alıb. Belə bir şəxsin Azərbaycan musiqisində mühüm rol oynaması təbiidir.T.Bakıxanov musiqinin bütün janrlarında fəal yaradıcılıq göstərən bir sənətkardır.Onun simfonik, kamera, səhnə musiqisindən ibarət əsərləri dəyərli sənət nümunələridir.

***

T. Bakıxanov təkcə musiqiçi, bəstəkar deyil, həm də musiqi xadimidir. Musiqi Akademiyasının professoru, mənim kiçik adaşım Tofiqin bir bəstəkar kimi Azərbaycan musiqisinin inkişafında böyük xidmətləri var.

***Tofiq Quliyev,***
***Xalq artisti, professor***

Tofiq Bakıxanov ən məhsuldar bəstəkarlardan biridir. Təkcə Azərbaycanda yox, dünya miqyasında tanınmış sənətçidir.

***

Tofiq Bakıxanovun ən yaxşı cəhətlərindən biri zəngin xalq musiqisindən incəliklə bəhrələnməsi, muğamlarımıza sənətkarlıqla yanaşması, bəstəkarlıq texnikasına hərtərəfli bələd olmasıdır.

***Arif Məlikov,***
***Xalq artisti, professor***

Milli baletlər xəzinəmizə Tofiq Bakıxanov 3 töhfə verib. Həm də elə töhfələr ki, yarandıqları vaxtdan mütəmadi olaraq səhnədə olublar, radio-televiziyalarda səsləniblər, göstəriliblər, digər balet əsərləri bolluğundakı təbii rəqabətə solğunlaşmayıblar, populyarlıqlarını itirməyiblər.

Tofiq Bakıxanov – bu şövqlə, həvəslə, səmimiyyətlə, həyat eşqi və yaradıcılıq niyyətləri ilə dolu insan bir sərvətdir.

O, millətimizə taleyin töhfəsi olan bir salnamədir ki, oxunduqca oxunmasına, öyrənildikcə öyrənilməsinə ehtiyac var.

***Rafael Hüseynov,***
***Akademik***

Mənim şagirdlərim arasında Tofiq Bakıxanov ən istedadlı və əməksevər skripkaçıdır. Onda hələ uşaq yaşlarından artistlik, səhnə mədəniyyəti özünü büruzə verirdi. Mən öz yetirməmlə öyünürəm. Onun yaradıcılığını, respublikada gənc kadrların yetişdirilməsində rolunu diqqətlə izləyirəm.

***M.İ. Simberov,***
***Əməkdar müəllim***

T. Bakıxanovun bəstəkar kimi unikal cəhəti ondadır ki, o, klassik qərb formalarında yazdığı əsərlərdə bu ənənənin, muğamla bağlı əsərlərində isə bu sahənin layiqli bilicisi və yaradıcısı olduğunu öz əsərləri ilə sübuta yetirir. Bəstəkarın yaradıcılığının pərəstişkarı kimi daima onu izləyən musiqişünas nöqteyi nəzərindən onu da qeyd edim ki, onun əsərlərində mövcud olan məntiqi ardıcıllıq, həyata fəlsəfi baxış insanı düşünməyə, yaşamağa sövq edir. Bu isə əsl yaradıcılıqdır ki, bəstəkar öz zəngin dünyasını, həyat təcrübəsini öz xalqı ilə, sənətsevərlərlə bölüşür.

***Rafiq İmrani,***
***professor, sənətşünaslıq doktoru***

Tofiq Bakıxanov, demək olar ki, öz sənətinin mücahididir. O, həmişə hərəkətdədir, bikar oturduğu an da olmur. O, küçədə gəzərkən elə bil harasa tələsir. Tofiq yalnız bəstəkar deyil, öz sənətinin təşkilatçısı, yaradıcısıdır. Mən onun bu gözəl məziyyətinə 1950-ci illərdə onunla birlikdə “Azərnəşr”də işlədiyim günlərdə, saatlarda bələd olmuşam. O illərdə Tofiq “Azərnəşr”də musiqi şöbəsinin müdiri idi. O bu vəzifəyə gəldiyi 3-4 ayın ərzində şöbəni, demək olar ki, musiqi evinə çevirmişdi. Qısa müddət ərzində Azərbaycan musiqisinin bütün tanınmış nümayəndələrini öz ətrafına çevirmişdi. Qəbul etdiyi musiqi əsərlərinin geniş müzakirəsini keçirirdi. Müəlliflərin təzəcə yazdığı mahnılar, lirika ilk dəfə, demək olar ki, onun otağında səslənirdi. Hamının hörmətini qazanmışdı. Onların içərisində muğamları dərindən bilən ikinci adam çətin tapılardı. Bu da əsassız deyildi. Çünki o, Əhməd Bakıxanovun evində tərbiyələnmişdi. O dövrdə Qara Qarayevin, Fikrət Əmirovun, Cahangir Cahangirovun və başqa böyük sənətkarların əsərləri nəfis şəkildə çap olunurdu. Bu yalnız Tofiq Bakıxanovun səyi və səliqəsi ilə əmələ gəlirdi.

***Qılman İlkin,***
***Xalq yazıçısı***

Tofiq Bakıxanov yaşı artdıqca gəncləşən, sinəsində coşğun bir ürək döyünən bəstəkarlarımızdandır. Qoy bu ürəyin hərarəti daha gözəl, daha dolğun musiqi əsərlərinə çevrilsin.

***Tofiq Mütəllibov,***
***Əməkdar incəsənət xadimi, şair***

Tofiq Bakıxanovun yaradıcılığının mövzu dairəsi çox genişdir. Onun Azərbaycanın müasir tarixinə, ölkəmizin həyatında baş verən hadisələrə, insanların arzu və istəklərinə həsr olunmuş əsərləri vətənpərvər bir sənətkarın duyğularını, baxışlarını əks etdirir. Bu baxımdan T.Bakıxanovun yaradıcılığında Vətənimizin gözəlliklərinin tərənnümü, igid oğullarının vəsfi xüsusilə önəmlidir. T.Bakıxanovun “Qarabağ harayı” simfoniyası bəstəkarın vətəndaşlıq mövqeyinin təzahürü olub, müasir tariximizin qanlı səhifələrini canlandıraraq, bəstəkarın düşüncələrini əks etdirir. Onun “Azərbaycan” simfoniyası, “Naxçıvan” simfoniyettası Vətənimizin möhtəşəm musiqi tablosudur.

***Cəmilə Həsənova,***
***sənətşünaslıq üzrə elmlər doktoru, professor***

Tofiq Bakıxanov yalnız istedadlı bəstəkar deyil, həm də peşəkar musiqiçi kadrların yetişməsində böyük payı olan təcrübəli pedaqoq, yüksək mənəvi keyfiyyətləri ilə seçilən nüfuzlu şəxsiyyətdir.

***Günay Məmmədova,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***